*Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır  30 yanvar 2021-ci il  № 8 (2516)  Qiymәti 30 qəpik


## Azərbaycan Prezidenti İlham ƏLİYEV: Şuşanı azad edərkən Azərbaycan əsgər və zabiti qəhrəmanlıq, peşəkarlıq, fiziki güc, yüksək milli ruh göstərib

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 27-də Aydın Kərimovu Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar videoformatda qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı qəbulda çıxış edib.*



- Mən sizi Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi vəzifəsinə təyin edirəm. Sizə böyük etimad göstərilir. Əminəm ki, siz bu məsuliyyəti dərk edəcəksiniz və öz işinizlə qarşınızda duran vəzifələrin icrasına çalışıb onları yerinə yetirəcəksiniz. Azad edilmiş ərazilərdə Prezidentin xüsusi nümayəndəsi institutu mənim təşəbbüsümlə yanvarın 19-da yaradılmışdır. Birinci təyinat məhz Şuşa rayonuna olan təyinatdır. Bu da təbiidir. Şuşa Azərbaycan xalqının qəlbində xüsusi yerə malikdir. Şuşa Qarabağın tacıdır, Şuşa təkrarolunmaz şəhərdir. Şuşanın yerləşməsi, təbiəti, havası, iqlimi, tarixi abidələri, dini abidələrimiz, şəhərin memarlıq ansamblı bizim milli sərvətimizdir. Şuşanı biz qorumalıyıq, qoruyacağıq. Biz Şuşaya qayıtmışıq və bundan sonra Azərbaycan xalqı Şuşada əbədi yaşayacaqdır. Necə ki, bütün dövrlərdə Şuşa həmişə Azərbaycan şəhəri olmuşdur və ermənilərin saxtakarlıq cəhdlərinə baxmayaraq, bütün dünya Şuşanı məhz Azərbaycan şəhəri kimi tanıyıb və qəbul edib.

Şuşanın işğal altına düşməsi böyük faciə idi. Hər bir şəhərin, hər bir kəndin, rayonun işğal altına düşməsi böyük faciə idi. Amma Şuşanın işğal altına düşməsi bizim üçün bəlkə də ən ağrılı itkimiz olmuşdur. Təkcə ona görə yox ki, Şuşanın strateji yerləşməsi imkan verirdi ki, bütün bölgəyə, - əgər orada işlər düzgün qurulsaydı, - nəzarət edək, imkan verirdi ki, Şuşanı müdafiə etmək üçün hətta az qüvvələrlə bütün lazımi tədbirləri görək. Şuşanın itirilməsi xalqımız üçün böyük sarsıntı yaratmışdır, mənəvi sarsıntı yaratmışdır və biz 28 il Şuşasız yaşamışıq. Ancaq Şuşa ermənilər tərəfindən dağıdılsa da, əyilmədi, əsirlikdə olsa da, öz ləyaqətini itirmədi, erməniləşdirmə cəhdlərinə məruz qalsa da, Azərbaycan ruhunu qoruyub saxlaya bildi. Biz Şuşaya qayıtmışıq və noyabrın 8-də bu müjdəni Azərbaycan xalqına verərək demişdim ki, Şuşa, sən azadsan! Biz öz tariximizə qayıtmışıq. Əlbəttə ki, Şuşanı bərpa edəcəyik, Şuşanı dirçəldəcəyik və dirçəlmə prosesi artıq başlamışdır.

Ermənilərin bütün cəhdlərinə baxmayaraq, onlar Şuşanı dünyaya erməni şəhəri kimi təqdim edə bilməmişlər. Baxmayaraq ki, 28 il ərzində buna çalışmışdılar, bir çox xarici qonaqları qanunsuz olaraq Şuşaya gətirmişdilər, Şuşa haqqında uydurmalar ortaya atmışdılar, Şuşanın adını dəyişdirmişdilər. Amma buna baxmayaraq, heç kim buna inanmırdı. Çünki Şuşaya gələn hər bir insanın fikri ondan ibarət idi və hər bir insan öz gözü ilə görürdü ki, Şuşanın memarlıq ansamblı Azərbaycan memarlıq məktəbini təcəssüm etdirir. İndi qədim tarixi saxtalaşdırırlar, indi saxta kitablar yazdırırlar, simpoziumlar, tədbirlər keçirirlər. Amma bu, nisbətən yaxın tarixdir. Şuşanı quran, Şuşa şəhərini salan bizim əcdadımız Pənahəli xan olmuşdur. Məhz onun fəaliyyəti, səyləri nəticəsində Şuşa şəhəri salınıbdır. Ondan əvvəl Pənahəli xan Bayat qalasını, Şahbulaq qalasını salmışdır. Təsadüfi deyil ki, bu şəhərə verilən birinci ad Pənahabad idi, öz adını vermişdir. Ondan sonra isə Şuşanın təmiz havasını, şüşə kimi havasını nəzərə alaraq bu şəhərə Şüşə, yəni, Şuşa adı verilmişdir.

Bu dərəcədə saxtakarlıq ola bilərmi?! Məlumdur ki, işğal dövrünə qədər Şuşa şəhərində daim azərbaycanlılar yaşamışlar. Burada erməni əhalisi demək olar ki, yox idi. Hətta 1920-ci illərdə bizim torpağımızda Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılanda Şuşanın əhalisinin əksəriyyəti azərbaycanlılar olmuşdur və işğal dövründə əhalinin 98 faizi azərbaycanlılar idi.

Şuşa bizim tarixi şəhərimizdir və biz bu şəhərə qayıtmışıq. Əgər ermənilər bu şəhəri öz şəhəri hesab edirdilərsə, nə üçün 28 il ərzində bir daşı daş üstə qoymayıblar? Nə üçün Şuşanın tarixi abidələrini qoruyub saxlaya bilməyiblər? Bütün bulaqlar quruyub. Hər bir məhəllədə bulaq olub, birində də su yoxdur. Yaxşı, əgər bu, sənin şəhərindirsə, niyə sən bulaqları qurudursan? Bütün tarixi abidələr yerlə-yeksan edilib. Əgər bu, sənin şəhərindirsə, niyə sən bu abidələri dağıtmısan? Əgər sən Ermənistan olaraq bəyan edirdin ki, Şuşanı azad etdiniz, kimdən azad etdiniz? Dinc əhalidən azad etdiniz? Azərbaycanlılardan azad etdiniz? Yaxşı, əgər hesab edirdiniz ki, siz bunu azad etmisiniz, niyə binaları dağıdırsınız? Əgər bu, erməni şəhəridirsə, nə üçün yerlə-yeksan edirsiniz? Orada təkcə bizim məscidlərimiz yox, bütün binalar dağıdılıb. Sovet vaxtında tikilmiş "Xruşovka"lar deyilən binalar, - hansı ki, Şuşanın memarlıq ansamblını kobudcasına pozur, - qalmışdı, orada da məskunlaşmışdılar. Mən Şuşada olarkən bu dağıntıları öz gözümlə görmüşəm. Elə bil ki, oradan vəhşi qəbilə keçib, vandallar Şuşanı bu günə salıblar. Sonra da deyirlər ki, Şuşa erməni şəhəridir. Bu, növbəti erməni yalanıdır, saxtakarlığıdır! Onların bütün tarixi saxtakarlıq və mifologiya üzərində qurulub. Onlar və onların müxtəlif ölkələrdəki havadarları onlar üçün saxta tarix yaradıblar və bu saxtakarlıq bu gün də davam edir. Baxın, görün erməni nümayəndələri və onların xaricdəki havadarları Şuşanın azad olunması ilə bağlı nələr deyirlər? Guya Şuşa bizə elə-belə verilib, döyüşlər getməyib, ermənilər Şuşanı tərk ediblər. Ağ yalandır! Şuşa əməliyyatı Azərbaycan xalqının qəlbində əbədi yaşayacaq. Şuşa uğrunda gedən döyüşlərdə şəhid olmuş qəhrəman övladlarımızın əziz xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaq.

**(Ardı 2-ci səhifədə)**

# Azərbaycan Prezidenti İlham ƏLİYEV: Şuşanı azad edərkən Azərbaycan əsgər və zabiti qəhrəmanlıq, peşəkarlıq, fiziki güc, yüksək milli ruh göstərib

**(Əvvəli 1-ci səhifədə)**

Şuşanı azad edərkən Azərbaycan əsgər və zabiti qəhrəmanlıq, peşəkarlıq, fiziki güc, yüksək milli ruh göstərib. O, Daşaltı istiqamətindən, digər istiqamətlərdən, sıldırım qayalardan qalxaraq, işğalçıları məhv edərək Şuşanı azad edib, demək olar ki, əliyalın, əlində süngü, bıçaq, yüngül silah topa, tanka qarşı vuruşub. Şuşa əməliyyatında yüzlərlə işğalçı məhv edilib, onların sayını biz bilirik. Ermənistan rəhbərliyi bunu nə qədər öz xalqından gizlətsə də, gizlədə bilməyəcək. Şuşanı müdafiə edən yüzlərlə işğalçını Azərbaycanın qəhrəman övladları məhv edib. Necə demək olar ki, Şuşa bizə bağışlanılıb? İkincisi, belə bir şəhəri kimsə kiməsə bağışlaya bilər? Biz Şuşanı qəhrəman övladların rəşadəti, qanı, canı bahasına düşmənlərin əlindən, əsarətindən almışıq. Bundan sonra Şuşada əbədi yaşayacağıq, Şuşanı qoruyacağıq və qoruyuruq.

Şuşanın 1992-ci il mayın 8-də itirilməsi böyük faciə idi. Bu faciənin günahkarları AXC-Müsavat cütlüyüdür. Hamı bunu bilməlidir, heç kim bunu unutmamalıdır. O vaxt Azərbaycanda hakimiyyət uğrunda mübarizə gedirdi. AXC-Müsavat cütlüyü hakimiyyətə can atırdı, o vaxtkı hakimiyyəti yıxmaq üçün bu təxribatı törətdi, Şuşanı faktiki olaraq düşmənə təhvil verdi. O vaxt Azərbaycan müdafiə naziri AXC-Müsavat cütlüyünün törəməsi idi, onların quyruqlarından idi. Şuşanı satan birinci o olmuşdur. Sonra da demişdi ki, mənim günahım yoxdur. Necə sənin günahın yoxdur, satqın, xain. Demişdi ki, Şuşa əldən getsə, başıma güllə çaxacağam. Bu günə qədər də bu gülləni çaxmayıb öz satqın başına. AXC-Müsavat cütlüyü öz çirkin niyyətlərinə çatıb. Şuşa və ondan bir neçə gün sonra Laçın rayonunun işğal altına düşməsi nəticəsində o vaxtkı hakimiyyət kənarlaşdırılıb və hərbi çevriliş nəticəsində AXC-Müsavat hakimiyyətə gəlib. Ondan sonra Şuşanı unudub, Şuşanı faktiki olaraq ermənilərə bağışlayıb və sonra digər xəyanət törədib - 1993-cü ilin aprel ayında Kəlbəcəri düşmənə təhvil verib. Günahsız, əliyalın insanları orada tək qoyub, xilas edə bilməyib, qoruya bilməyib. Ondan sonra da nə edib?! Fərarilik edib, qaçıb. Ali Baş Komandan fərari, dövlət katibi fərari, parlamentin sədri fərari, digər fərarilər qaçıb gizləndilər, biri Kələkidə, biri xaricdə. Əgər müharibə dövründə Ali Baş Komandan qaçırsa, bunun adı fəraridir, başqa adı yoxdur. Hamı bunu bilməlidir, heç kim bunu unutmamalıdır.

Mən demişəm, bir daha demək istəyirəm ki, tariximizin həqiqətə uyğun olması ilə bağlı bizim alimlər, bizim mütəxəssislər gərək dolğun məlumat versinlər, tariximizi malalamasınlar. Bizə saxta tarix lazım deyil. Sovet dövründə nə qədər saxta tarixlə üzləşmişdik. Bizim qəhrəmanlarımız düşmən kimi göstərilirdi. Xalqımızın düşmənləri, qaniçənlər qəhrəman kimi göstərilirdi. 26 Bakı komissarı - o erməni bolşevik quldur dəstəsi qəhrəman kimi göstərilirdi. Ancaq onlara qarşı vuruşan milli vətənpərvər insanlar düşmən kimi göstərilirdi. Biz bunu görmüşük. Bizim nəsil bunu görüb, saxta tarix nədir. İndi yenə kimsə saxta tarix yaratmaq istəyir. Yenə kimsə hansısa fərarinin, satqının, qorxağın günahlarını yumaq istəyir. Biz buna imkan verə bilmərik. Hər kəs bilməlidir, torpaqları satan kimdir, torpaqları əsarətdən qurtaran kimdir.

Şuşanın qorunması ilə bağlı müvafiq göstərişlər verilib. Azərbaycan hərbçiləri Şuşanı qoruyurlar, ətraf yüksəklikləri nəzarətdə saxlayırlar və saxlayacaqlar. Şuşada komendantlıq yaradılıb və indi isə mülki idarəetmə institutu yaradılır. Bir daha demək istəyirəm ki, sizə böyük etimad göstərilir. Çünki Şuşanın Azərbaycan tarixində xüsusi yeri var və Şuşanın bərpası, dirçəlməsi hamımızın işidir. Əlbəttə ki, bütün işlər planlı şəkildə aparılmalıdır, Şuşanın tarixi siması saxlanılmalıdır, Şuşaya yad olan hər hansı bir tikiliyə yol vermək olmaz. Mən artıq bir müddət bundan əvvəl Şuşaya mütəxəssislərdən ibarət böyük bir qrup ezam etmişdim. Onların arasında siz də var idiniz və vəziyyətlə tanış oldunuz. Bu qrup bir neçə gün Şuşada qalıb, bütün təftiş, təhlil işlərini aparıb və mənə məruzə edib. Şuşanın bərpası bunun əsasında aparılacaqdır.

Eyni zamanda, biz, əlbəttə ki, Şuşanın bərpadan sonrakı həyatını da geniş müzakirə edəcəyik. Mən artıq Şuşanı Azərbaycanın mədəniyyət paytaxtı elan etmişəm. Bərpadan sonra Şuşada həyat qaynamalıdır. İnsanlar qayıdandan sonra Şuşanın çox zəngin mədəni həyatı olmalıdır. Həm ölkə daxilindəki tədbirlər, eyni zamanda, bir çox beynəlxalq tədbirlər - festivallar, müsabiqələr, qastrollar orada keçirilməlidir. Yəni, Şuşa nəinki Azərbaycanın, əminəm ki, bölgənin mədəniyyət paytaxtı adına layiq olacaqdır.

Təsadüfi deyil ki, bu yaxınlarda qəbul etdiyim iki nümayəndə heyətinin başçısı Şuşaya xüsusi diqqəti dilə gətirib. ICESCO-nun Baş katibi mənimlə görüş zamanı bildirdi ki, onlar təklif edəcəklər ki, Şuşa İslam mədəniyyətinin paytaxtı elan edilsin. Bu, bizi çox məmnun edən bir addımdır. Onu da bildirməliyəm ki, bu günə qədər Azərbaycanın iki şəhəri bu şərəfli ada layiq görülmüşdür - Bakı şəhəri və Naxçıvan şəhəri. Mən xatırlayıram, ICESCO belə qərarı qəbul edəndə bir neçə il əvvəl qərar verilir, ondan bir neçə il sonra artıq o şəhər bu şərəfli ada layiq görülür. Növbə də var, sıra da var. Ona görə belə bir bəyanatın Bakıda səslənməsi xüsusi məmnunluq doğurur. Eyni zamanda, bu yaxınlarda Türk Şurasının nümayəndə heyəti ilə görüş əsnasında Türk Şurasının Baş katibi də belə bir təklif irəli sürdü ki, Şuşa Türk dünyasının mədəniyyət paytaxtı seçilsin. Baxın, bu tarixi şəhərimizə türk dünyasında və bütövlükdə müsəlman dünyasında nə qədər böyük maraq var, nə qədər böyük məhəbbət var. Bu, təsadüfi deyil. Ona görə biz, əlbəttə ki, Şuşanın gələcək həyatı ilə bağlı öz addımlarımızı atacağıq. Artıq mən bildirmişəm ki, bu il iki tədbir keçirilməlidir. "Xarı bülbül" festivalı, Vaqif poeziya günləri bərpa edilməlidir. Vaqifin məqbərəsinin bərpası ilə bağlı işlərə start verilməlidir və çalışmalıyıq ki, məqbərə bu il bərpa edilsin. Vaqif poeziya günləri məqbərənin önündə keçiriləcəkdir.

Təbii ki, düşmən Şuşanı talan edib, viran qoyub, dağıdıb. Şuşada olarkən, bu acı mənzərəni seyr edərkən adamın ürəyi ağrıyır. Amma biz bütün infrastruktur layihələrini icra edərək Şuşanı tez bir zamanda bərpa edəcəyik. Bildiyiniz kimi, Şuşaya gediş-gəlişin təşkil edilməsi üçün mənim Sərəncamımla yol çəkilir. Füzuli hava limanı inşa edilir və bu ilin sonuna qədər istifadəyə verilməlidir. Ondan sonra beynəlxalq uçuşlar təşkil edilməlidir. Şuşa ilə bağlı indidən müxtəlif ölkələrdə təqdimatlar və sərgilər keçirilməlidir. Siz Azərbaycan Dövlət Turizm Agentliyi və Mədəniyyət Nazirliyi ilə birlikdə bu proqramı işləyin. Dünyanın müxtəlif ölkələrində Şuşanın tarixi, işğal dövrü, bugünkü bərpa işləri ilə bağlı təqdimatı keçirilməlidir. Həm Azərbaycan ictimaiyyəti, eyni zamanda, beynəlxalq ictimaiyyət bərpa işlərimizin gedişi ilə bağlı məlumatlandırılmalıdır.

İnfrastruktur layihələrinə gəldikdə, Şuşa infrastruktur baxımından demək olar ki, tamamilə geridə qalmış bir şəhərdir. Düşmən orada bir daşı daş üstə qoymayıb, bir bina tikməyib. Özləri üçün bir neçə villa tikdirib. Villanın biri o xunta başçısına, biri isə deyilənə görə, Ermənistan rəhbərliyində təmsil olunan zəngin, rüşvətxor məmura məxsusdur. Mənfur düşmən 28 il ərzində orada ondan başqa bir dənə də bina tikməyib. Yollar bərbad, binalar dağılmış, hər tərəf xozanlıq, zir-zibil, çirkin köşklər. Olan-qalanı da dağıdıblar. Bir daşı daş üstə qoymayıblar, ancaq istismar ediblər. Bundan sonra gəlib deyirlər ki, Şuşa erməni şəhəridir, onun adını da dəyişdirməyə cəhd ediblər. Ona görə infrastruktur layihələrinin icrası, əlbəttə ki, birinci məsələdir. Bununla paralel olaraq şəhərsalma işləri düzgün aparılmalıdır. Siz bu təyinata qədər Dövlət Şəhərsalma və Arxitektura Komitəsində işləmisiniz, təcrübəniz var və əminəm ki, bu işlərə rəhbərlik edəcəksiniz.

Tarixi, dini abidələrimizin bərpası ilə bağlı konkret proqram işlənilir. Müvafiq göstərişlər verilib, Heydər Əliyev Fondu bu məsələyə fəal qoşulubdur, eyni zamanda, Mədəniyyət Nazirliyi, digər aidiyyəti qurumlar. Yaşayış fondu təftiş edilib. Yaşayış fondunun böyük hissəsi yararsız vəziyyətdədir. İşğal dövründə Şuşada təqribən maksimum 2-3 min adam yaşayırdı. Ermənilər nə qədər çalışsalar da, Şuşanı məskunlaşdıra bilməmişdilər. Halbuki xaricdən gətirilmiş erməniləri orada yerləşdirməklə hərbi cinayət törətmişlər. Bütün bu aksiyalar təbliğat xarakteri daşıyırdı. Orada yaşayanların böyük hissəsi hərbçilər və onların köməkçiləri idi. Yaşayış fondunun təftişi mütləq daha müfəssəl aparılmalıdır, - birinci təftiş aparıldı, - əlbəttə ki, ondan sonra bərpa işləri aparılacaqdır.

Biz Şuşanı dünyanın ən gözəl şəhərlərindən birinə çevirməliyik və çevirəcəyik. Mən bu sözü vermişəm və bu sözümü də icra edəcəyəm. Necə ki, əvvəlki dövrlərdə demişdim biz heç vaxt Azərbaycan torpağında ikinci erməni dövlətinin yaranmasına imkan verməyəcəyik və vermədik. Demişdim ki, Azərbaycan bayrağı Şuşada qaldırılacaq və qaldırıldı. Demişdim ki, Şuşasız qələbəmiz yarımçıq olacaq və o vaxt müharibə dövründə bundan artığını deyə bilmirdim. Çünki müharibənin aparılmasının məxfiliyi gözlənilməli idi. Müharibənin ilk günlərindən biz bilirdik ki, hədəfimiz nədir və Şuşaya doğru uğurla irəliləyirdik. Əgər müharibənin gedişatına hər bir mütəxəssis nəzər salsa, görər ki, bizim strateji hədəfimiz nə idi. Biz Ermənistan tərəfindən qurulmuş istehkamları yararaq cənub istiqamətindən işğal edilmiş torpaqlara daxil olduq, onları azad etdik və müxtəlif istiqamətlər üzrə əks-hücuma keçdik. Bunun nəticəsində Cəbrayıl, Füzuli, Hadrut, Xocavənd rayonlarının bir hissəsini, Murovdağ yüksəkliyini, Kəlbəcər rayonunun bir hissəsini, Zəngilan, Qubadlı, Laçın rayonlarının cənub hissəsini və Şuşa şəhərini azad etdik. Hədəfimiz Qarabağın tacı olan Şuşa idi və noyabrın 8-də Azərbaycan bayrağı Şuşada qaldırıldı. Ondan sonra düşmən diz çökdü, təslim oldu, ağ bayraq qaldırdı. Biz Kəlbəcər, Laçın, Ağdam rayonlarını bir güllə atmadan geri götürdük. Bizim hədəfimiz Şuşa idi, zəfərimiz də Şuşa oldu. Şuşanın azad olunması günü Zəfər günü elan edildi.

Bu müharibə bir daha Azərbaycan xalqının əyilməz ruhunu göstərdi və bir daha göstərdi ki, nəyi demişəmsə, onu da etmişəm. Təsadüfən demirdim ki, mən bilirəm nəyi, necə, nə vaxt etmək lazımdır. Azərbaycan xalqına kiçik də olsa, siqnal verirdim ki, hər şey yaxşı olacaq. İstədiyimizə nail olacağıq, sadəcə olaraq, hər şeyin vaxtı var. Müharibə dövründə, sadəcə olaraq, bir dəfə Şuşa haqqında demişdim, o da müxbir soruşdu ki, bəs Şuşa nə vaxt alınacaq? Əlbəttə ki, bunu biz deyə bilməzdik, dedim ki, Şuşasız bizim qələbəmiz yarımçıq olacaq. Ancaq heç şübhə etmirdim ki, biz əziz, doğma Şuşamızı erməni əsirliyindən xilas edəcəyik, Azərbaycan bayrağını qaldıracağıq. O vaxt demişdim ki, Azərbaycan bayrağı Şuşada qaldırılacaq. Bu gün isə deyirəm ki, biz hamımız, bütün xalqımız Şuşanı dirçəldəcəyik!

Bir daha demək istəyirəm ki, sizin üzərinizə çox böyük məsuliyyət düşür. Əminəm ki, siz bu məsuliyyəti dərk edirsiniz və Şuşanın dirçəldilməsi işində öz fəal rolunuzu oynayacaqsınız. Yəqin onu da bilirsiniz və şübhə etmirsiniz ki, Şuşanın bərpası daim mənim nəzarətimdə olacaq və yaxın zamanlarda Şuşa yenə də öz tarixi simasını bərpa edəcəkdir. Sizə uğurlar arzulayıram.

Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov dedi:

- Möhtərəm cənab Prezident, mənə bu etimadı göstərdiyinizə görə Sizə öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Sizin rəhbərliyinizlə müzəffər Ordumuzun şücaəti nəticəsində Şuşa şəhəri işğaldan azad olunandan sonra etdiyiniz tarixi çıxışınızda "Şuşa, biz səni dirçəldəcəyik!" şüarını səsləndirmisiniz. Bu şüar altında quruculuq işlərində iştirak etmək mənim üçün böyük şərəf və eyni zamanda, böyük məsuliyyətdir. Sizi əmin etmək istəyirəm ki, Azərbaycan mədəniyyətinin paytaxtı olan Şuşanın planlı və sistemli şəkildə yenidən qurulması, olduqca zəngin tarixi, mədəni irsinin bərpa edilməsi, sakinlərin rahat və əlçatan müasir məxsusi şəhər mühitində yaşamaları üçün qarşımda qoyduğunuz vəzifələrin, bütün tapşırıqlarınızın vaxtında və tələb etdiyiniz səviyyədə yerinə yetirilməsi üçün əlimdən gələni edəcəyəm. Bir daha təşəkkür edirəm, cənab Prezident.

2 Fevral Gənclər Günüdür

## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Azərbaycan gəncləri cəmiyyətimizin fəal hissəsidir

*Böyük tarixi şəxsiyyət Heydər Əliyev azərbaycançılığı Azərbaycan naminə cəmiyyətin mənəvi kamilliyinin başlıca şərti bilirdi. Gənclər siyasəti gənclərin siyasi proseslərə inteqrasiyasıdır, qabiliyyətli, istedadlı, vətənsevər gənclərin biliyinin, bacarığının, qabiliyyətinin cəmiyyətin inkişafı sahələrinə tətbiqini təmin edən tədbirlər sistemidir. Ulu öndər Heydər Əliyev deyirdi: "Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir". Bu düşüncə həmişə azərbaycançılıq əsasında formalaşdırılıb. Gənclər siyasəti dövlətin daxili siyasətinin başlıca istiqamətlərindən olub. Azərbaycan Respublikası Prezidentinin 26 iyul 1994-cü il tarixli Fərmanı ilə Gənclər və İdman Nazirliyinin yaradılması dövlət siyasətində gənclərin daha fəal iştirakının təmin edilməsində hüquqi sənəd oldu və bu qurum dövlət siyasətinin aparıcı qüvvəsinə çevrildi.*




2 Fevral 1994-cü ildən Gənclər Günü kimi qeyd olunur. Gənc nəslin vətənpərvərlik ruhunda daha geniş dünyagörüşə malik olmalarının təmin edilməsi, formalaşması dövlətin gənclər siyasətinin başlıca məqsədidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu siyasəti uğurla davam etdirir. Bunun nəticəsidir ki, çağdaş Azərbaycan gəncləri cəmiyyətin bütün sahələrində nəinki fəallığıyla fərqlənir, həm də dövlət üçün, dövlətçilik üçün gərəkli təşəbbüslərin gerçəkləşməsində israrlıdırlar.

Gənclik cəmiyyətin mühüm hissələrindəndir. Cəmiyyətdə dövlətçilik üçün gərəkli olan bütün proseslərin aparıcı qüvvəsi gənclərdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin gənclərə ünvanladığı fikirlər dövlətin gənclər siyasətinin mahiyyətinin ifadəsidir: "Gənclər, mən sizə inanıram, güvənirəm".

Digər istiqamətlərdə olduğu kimi, gənclər siyasətinin də əsasını azərbaycançılıq ideologiyası təşkil edir. Yəni, Azərbaycan gənclərinin vətənpərvərliyi milli mentalitet əsasında formalaşdırılır.

Ermənistanın Azərbaycandan ərazi iddiası elan edilmədən başlayan müharibəyə səbəb oldu. Xarici havadarlarına güvənən işğalçı dövlət 20 faiz ərazimizi işğal etmişdi. Nə BMT-nin Təhlükəsizlik Şurası, nə də Minsk qrupunun həmsədri olan dövlətlər bu münaqişəni həll edə bilmədi. Bəlkə də həll etmək istəmədi. Bu problemi Azərbaycan Ordusu həll etdi.

Ordu quruculuğu Azərbaycanda dövlət üçün həmişə prioritet olub. Ordu quruculuğu istiqamətində həyata keçirilən qlobal tədbirlər, müxtəlif miqyaslı təlimlər, müxtəlif səviyyəli beynəlxalq təlimlər, ordunun ən müasir silahlarla təchiz edilməsi şəxsi heyətin döyüş hazırlığı, müxtəlif tədbirlər, Ali Baş Komandanın Vətən müharibəsinə qədər ön xətdə, səngərlərdə hərbi qulluqçulara tövsiyələri, xidmətdə fərqlənənləri mükafatlandırması şəxsi heyətin mənəvi-psixoloji hazırlığını yüksəltmişdi. Azərbaycan Ordusu dünya miqyasında ən güclü ordular sırasındaydı. Vətən müharibəsində qazandığı qələbə onun qüdrətini daha da artırdı.

Ermənistan silahlı birləşmələri sentyabrın 27-də müxtəlif istiqamətlərdən, müxtəlif növ silahlardan, artilleriyadan istifadə etməklə böyük təxribat törətmək, yeni ərazilər işğal etmək niyyəti ilə hücum etdi. Ordumuz işğalçıların hücumunun qarşısını qətiyyətlə aldı. Ali Baş Komandanın əmri ilə əks-hücum əməliyyatı - Vətən müharibəsi başladı.

Azərbaycan Ordusunun tərkibi, əsasən, gənclərdən ibarətdir; Vətən müharibəsi iştirakçılarının əksəriyyəti gənclər idi.

Vətən müharibəsi başlayanda minlərlə gənc Səfərbərlik və Hərbi Xidmətə çağırış üzrə rayon şöbələrinə müraciət etdi. Bu müraciətlər ayrılıqda da, vəhdətdə də vətənpərvərlik ruhunun Vətənə hesabatı idi. Qismən səfərbərlik elan edildiyinə görə gənclərin xahişi yerinə yetirilmədi; gənclərin bu niyyəti ordunun şəxsi heyətinin döyüşə sevgisini - döyüş əzmini, qələbə ruhunu kükrətdi. Azərbaycan əsgəri Azərbaycan gəncliyinin "nəfəsini kürəyində hiss etdi"...

Vətən müharibəsinə kimi çağırışçılar hərbi xidmətə Ali Baş Komandanın əmri ilə torpaqlarımızı işğaldan azad edəcək döyüşlərdə iştirak etmək niyyətiylə başlayırdı. 2020-ci il sentyabrın 27-nə kimi səngərlərdə, mövqelərdə döyüş növbətçiliyi aparan əsgərlər də bu amalla xidmət edirdilər. Hərbi xidmətdən tərxis olunanlar döyüşlər başlayanda döyüşənlərin sırasında olmaqda israrlıydılar. Yəni, Azərbaycan gəncliyi döyüş əzmi ilə xidmət edirdi, döyüş ruhuna tən döyüş əzmi idi. Yəni, Azərbaycan gəncliyi düşüncələrində də, yaşantılarında da döyüş əmri gözləyirdi. Gəncliyin gözləməsi cəmiyyətin gözləməsinin eyni idi...

Birinci Qarabağ müharibəsinin iştirakçılarının oğulları, bəzilərinin nəvələri torpaqlarımızın işğaldan azad edilməsi üçün başlayacaq döyüşləri şəhidlərin ruhuna gözaydınlığı etmək niyyətindəydi. Döyüşlər əks-hücum əməliyyatı kimi başladı, Vətən müharibəsi kimi davam etdi. Azərbaycan Ordusu, bu anlamda Azərbaycan gəncləri sərkərdənin əmrini qələbə ilə tamamladı; Zəfər işğalı sonlandırdı. Azərbaycan Ordusu bu qələbə ilə regionda bir terror şəbəkəsini də zərərsizləşdirdi. Yəni, Azərbaycan Ordusunun (məntiqi baxımdan Azərbaycan gənclərinin) bu qələbəsi bəşəri qələbə oldu.

Müharibədə döyüşlər həm ordunun qüdrətinin, həm də döyüşçülərin döyüş əzminin, qələbə ruhunun göstəricisi olur. Əsgər qətiyyətlidirsə, ordu qətiyyətlidir, əsgər güclüdürsə, ordu güclüdür, əsgərin döyüş hazırlığı yüksəkdirsə, ordunun döyüş hazırlığı yüksəkdir. Bu, müharibələr tarixində təsdiqini tapmış tezislərdəndir. Müharibə tarixləşir, döyüşlər tarixləşir, tarixləşən döyüşlərin ayrı-ayrı məqamlarını (döyüşün gedişini) döyüşçülər yaşadır - təəssürat kimi, xatirə kimi. Vətən müharibəsinin iştirakçılarının indiki təəssüratları zaman anlamında sabah xatirə olacaq. Vətən müharibəsinin iştirakçılarının döyüş təəssüratları zaman-zaman Azərbaycan gənclərinin vətənsevərliyini ovxarlayacaq. Bu qənaətim öz təsdiqini ölkə başçısının gənclərə ünvanladığı "Gənclər, mən sizə inanıram, güvənirəm" fikrindən alır. Azərbaycan gəncliyi ölkə başçısının bu qürurunu yaşayacağı illərin leytmotivi bilir; bu inamda, bu güvəncdə müqəddəslik çalarları da görür...

Vətən müharibəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qürurla dediyi "Dünyada heç bir qüvvə bizi haqq yolundan döndərə bilməz. Dünyada heç bir ölkə bizim iradəmizə təsir edə bilməz. Biz haqq yolundayıq. Biz qalib gəlirik. Biz zəfər çalırıq və biz öz torpaqlarımızı geri alacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik", "Biz haqlıyıq, biz öz torpağımızda vuruşuruq, öz torpağımızda şəhidlər veririk. Bizim savaşımız müqəddəs savaşdır!" kimi fikirləri döyüşçülərin qələbə ruhunun manifestinə döndü, ictimaiyyət Azərbaycan gənclərinin qazandığı ilkin qələbələri tam qələbənin zəmanəti bildi. Noyabrın 8-də Şuşa işğaldan azad edildi. Bu qələbə işğalın sonunun ərəfəsi kimi yaşanıldı. Xarici hərbi ekspertlər də Şuşanın işğaldan azad edilməsini heyrətlə qarşıladı; kimisinin heyrəti paxıllıq, gözəgötürməzlik, kimisinin heyrəti Azərbaycan Ordusuna ehtiram, rəğbət idi. Bu ehtiram, bu rəğbət Azərbaycan gənclərinə olan ehtiramdı, rəğbətdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şuşada hərbçilərlə görüşəndə bu qələbənin tarixi əhəmiyyətini də vurğuladı, qələbəni qazananlara Vətən adından təşəkkürünü də bildirdi. Dünyanın heç bir yerində dövlət başçısının təşəkkürü Vətənin təşəkkürü kimi səslənmir. Bu səsləniş dövlətə, dövlətçiliyə sədaqətin səviyyəsiylə bağlıdır.

Ölkə başçısı Şuşada dedi: "Bütün nəsillərdən olan vətəndaşlarımızın bu Qələbədə böyük zəhməti var. Ancaq onu da bildirməliyəm ki, əsas yükü, əsas vəzifəni gənc nəsil yerinə yetirdi". Sərkərdənin döyüşçüyə - Ali Baş Komandanın əsgərə rəğbətinin bu səmimilikdə ifadəsi olan bu kəlmələr ordunun şəxsi heyətinin mənəvi-psixoloji hazırlığını ali səviyyədə tamamladı. Ordu gəncləri ilə Azərbaycan gəncləri də qürurlanır. Qürurlanır və onlara xitabən əminliklə deyir ki, sizin işğaldan azad etdiyiniz ərazilərdə biz də sizin dövlətçiliyə sədaqətiniz səviyyəsində iştirak edəcəyik! 44 gün davam edən Vətən müharibəsində qazanılan qələbəyə görə Azərbaycan gəncləri Azərbaycan Ordusuyla hansı səviyyədə qürurlanırsa, Azərbaycan Ordusunun şəxsi heyəti də bu niyyətinə görə Azərbaycan gəncləri ilə həmin səviyyədə qürurlanır...

2 Fevral Gənclər Günüdür. Həm də gənclərin gücünün, qüdrətinin, qələbələrinin davamçısı olacaq çağırışçıların, yeniyetmələrin, bu baxımdan bütün cəmiyyətin ovqatını bayraqlaşdıran gündür...

Vətən müharibəsində qazanılan qələbə Azərbaycanın bəşəri qələbəsi oldu. Bu qələbə həm də Azərbaycan gəncliyinin qüdrəti kimi tarixləşdi...

Azərbaycanda gənclər siyasəti inamın, güvəncin siyasətidir.

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

AZƏRBAYCAN ORDUSU

Tibb xidməti

# İnsanın ən böyük sərvəti sağlamlıqdır

*Ümummilli liderimiz Heydər Əliyev daim səhiyyənin qayğısına qalır, bu sahənin davamlı inkişafı üçün lazım olan şəraiti yaradaraq qeyd edirdi: "Özünü həkim sənətinə, insanların sağlamlığına, səhhətinə həsr edənlər ən qiymətli insanlardır." Böyük tarixi şəxsiyyətin tövsiyələrini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev böyük sədaqətlə davam etdirir. Hərbi qulluqçuların sağlamlığını qorumaq isə ikiqat şərəfli və məsuliyyətlidir. Müdafiə Nazirliyi Tibb Baş İdarəsinin tabeliyində olan Mərkəzi Stomatoloji Poliklinikanın əməkdaşları da bu vəzifəni məsuliyyətlə yerinə yetirirlər.*



Silahlı Qüvvələrin baş stomatoloqu, Mərkəzi Stomatoloji Poliklinikanın rəisi, tibb xidməti polkovnik-leytenantı Samir Fətəliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin orduya qayğısından, diqqətindən, həmçinin onun rəhbərliyi altında Silahlı Qüvvələrdə aparılan genişmiqyaslı islahatlardan, hərbi səhiyyənin müasir tələblər səviyyəsində qurulmasından və 44 gün davam edən Vətən müharibəsindən qürurla danışdı. Bu qələbəni bəşəri qələbə adlandırdı:



- Silahlı Qüvvələrimizdə ən müasir tələblərə cavab verən tibb müəssisələri mövcuddur. Poliklinikamızın yerləşdiyi bina yeni təmir olunub və ən müasir avadanlıqlarla təchiz edilib. Bu avadanlıqlar daim yeniləri ilə əvəzlənir. Dərman ləvazimatları, ən yeni sarğı materialları üz və çənə sahəsində baş verən problemləri, ağız boşluğu və selikli qişada baş verən patalogiyaları aradan qaldırmaq üçün dərman preperatları vasitələri qeydə alınır, Tibb Baş İdarəsinin anbarından götürülərək xəstələrə tətbiq olunur. Burada çalışan savadlı, xeyirxah həkimlər hər an zabit və əsgərlərimizin sağlamlığının keşiyindədirlər. Biz zabit, gizir, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının, əsgərlərin, Vətən müharibəsi yaralılarının, ehtiyatda olan hərbçilərin, onların ailə üzvlərinin və mülki vətəndaşların da ambulator müayinə və müalicəsini aparırıq.

Poliklinika 4 əsas bölmədən - 3 yardımçı bölmədən və diş texniki laboratoriyasından ibarətdir. Poliklinikada stomatoloji yardımdan əlavə dişlərin bərpası ilə də məşğul oluruq. Diş texniki laboratoriyasının tabeliyində 28 texnik fəaliyyət göstərir. Burada dişlər hazırlanıb həkimlərə təhvil verilir. Müasir stomatologiyada mövcud olan hər bir işlə məşğuluq. Əməkdaşlarımız davamlı olaraq növbəli sistemdə 3-9 ay, hətta 1 il müddətinə Türkiyədə Gülhanə Tibb Akademiyasında kurs keçirlər. Onlar hər il, indi mövcud olan pandemiya dönəmində və müharibə zamanı mümkün olmasa da, öncəki illər qardaş Türkiyənin Ankara və İstanbul şəhərlərində, Avropanın mərkəzi şəhərlərində konfranslara, treninqlərə qatılaraq müasir stomatologiyada baş verən yeniliklərlə yaxından tanış olur və bu yenilikləri xəstələrimiz üzərində uğurla tətbiq edirlər.



Poliklinikada 19 zabit həkim-stomatoloq, 9 gizir və 16 müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu, 100-ə yaxın mülki işçi müraciət edənlərin xidmətindədir. Müraciət edənlər ilk olaraq qeydiyyata alınaraq aparıcı-mütəxəssislərin baxışından sonra rentgen-diaqnostika olunur, hansı dişlərin müalicəyə, hansıların ortopedik müalicəyə ehtiyacı varsa, müalicəsi üçün müvafiq şöbələrə göstəriş verilir. Qısa müddət ərzində müraciət edən xəstələrin problemləri aradan qaldırılır.

Silahlı Qüvvələrin baş stomatoloqu qeyd etdi ki, stomatoloji sahədə icad olunan bütün yeniliklər burada da həyata keçirilir. "Ağız boşluğundakı bütün problemləri aradan qaldırırıq, cərrahiyyə, implant, breket, sümük və digər ambulator şəraitdə nə mümkündürsə, poliklinikada həyata keçirilir. Əməliyyat bloku lazım olan əməliyyatlar hospitalda həyata keçirilir. Bölgələrdə stomatoloji problemlər baş verən zaman aparıcı mütəxəssislər, stomatoloqlar, səyyar-stomatoloq mütəxəssislər oraya ezam olunaraq xəstələrin müalicəsi ilə məşğul olurlar.

Vətən müharibəsində həkimlərimiz böyük məsuliyyətlə, sutka ərzində fəaliyyət göstərdilər. Ali Baş Komandanın əmrinə uyğun olaraq 27 sentyabr 2020-ci ildə Poliklinika rəisi, ortopediya, terapeya bölmə rəisləri və şəxsi heyət ön xəttə ezam edilərək xidmətlərini orada davam etdirdilər. Bu dövrdə onlar yaralanmış döyüşçülərin üz-çənə nahiyəsində baş verən yaralanmalara ilkin yardım edərək müdaxilələr edib və yaralıların təxliyəsi ilə məşğul olublar. Bu işdə onlara Səhiyyə Nazirliyinin tabeliyində olan təcrübəli aparıcı üz-çənə cərrahları da köməklik ediblər. Üz-çənə hissəsindən yaralanmış döyüşçülər ilkin yardım göstərildikdən sonra Silahlı Qüvvələrin Baş Klinik Hospitalına, Səhiyyə Nazirliyinin üz-çənə cərrahiyyəsi kafedralarına təxliyə ediliblər".

1993-cü ildən həkim kimi xidmətdə olan polkovnik-leytenant Samir Fətəliyev daha sonra dedi:

- Qətiyyətlə deyə bilərəm ki, yaralanan döyüşçülərin üz-çənə nahiyəsində bütün travmalar, zədələr tam bərpa olundu. Uğurlarımızda təchizat mühüm əhəmiyyətə malik oldu. Buna görə dövlət başçımıza, ordu rəhbərliyinə minnətdarıq. Biz ən müasir avadanlıqlarla hərtərəfli təmin olunmuşuq.

İmplantalogiya və üz-çənə cərrahları cəmiyyətinin üzvü olan polkovnik-leytenant Samir Fətəliyev Avropanın mərkəzi şəhərlərindəki klinikalarda keçirilən konfranslarda diplomlarla təltif olunub. Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyeva əxlaq və mənəviyyat haqqında yazdığı kitabında "Yaxşı həkim, ilk növbədə, yaxşı insan olmalıdır. Əgər o, yaxşı insan deyilsə, yaxşı həkim də ola bilməz. Əgər yaxşı həkim insanı qiymətləndirməsə, onu başa düşməsə, onunla nəvazişli davranmasa, onun biliyinin nə qiyməti olacaq?" deyirdi. Peşəkar həkimin müraciət edən xəstələrin dərin hörmətini qazandığını hiss edərək demək istərdim ki, hər kəs öz peşəsinin güclü mütəxəssisi olmalıdır. Burada olduğumuz qısa zaman ərzində eşitdiklərimə və müşahidələrimə əsaslanaraq deyə bilərəm ki, tibb xidməti polkovnik-leytenantı Samir Fətəliyev həkimə xas olan bütün insani keyfiyyətləri özündə birləşdirən peşəkar mütəxəssisdir və poliklinikada da belə bir mühit yaradılıb.

Qələbələrdən, Zəfər paradından danışarkən Samir həkim "Həm hərbçi, həm də həkim adı ilə qürurlanıram", - dedi.

**Baş leytenant
Günay TAĞIYEVA,
"Azərbaycan Ordusu"**

# "Ermənistan gələcəyini düşünürsə, qarşıdurma cəhdlərindən əl çəkməlidir"

*Sessiya çərçivəsində Ermənistandan olan həmkarlarımızın siyasi qruplarda və ya komitələrdəki həqiqəti təhrif edən, saxta məlumatlar üzərində qurulan çıxışlarına reaksiya verməməyə, gərginliyi artırmamaq üçün belə çıxışları sərt cavablandırmamağa çalışıram. Azərbaycan əsas məsələni döyüş meydanında həll edib. Azərbaycan 44 gün davam edən müharibədə 30 ilə yaxın müddətdə Ermənistanın işğalı altında olan ərazilərini azad edib. Qələbəmizə kənar kömək olmadan, ildən-ilə güclənən müzəffər Ordumuzun sayəsində nail olduq. Bu gedişatda ölkəmizə guya kənardan dəstək göstərilməsi kimi Ermənistanın iddiaları yalnız cəfəngiyat, əsası olmayan müddəalardır. Ermənistan artıq özünü Azərbaycanla müqayisə etməməlidir.*

AZƏRTAC xəbər verir ki, bu fikirləri AŞPA qış sessiyası çərçivəsində Avropa naminə Liberal Demokratlar Alyansı siyasi qrupunun iclasında qrupun azərbaycanlı üzvü Rafael Hüseynov deyib.

Deputat bildirib ki, dövlət büdcəsində Azərbaycanda müdafiə xərclərinə ayrılan maliyyə vəsaiti Ermənistanın bütöv illik büdcəsinə bərabərdir. Azərbaycan iqtisadi cəhətdən güclü, inkişaf edən ölkədir. Amma bunu Ermənistan haqda demək olmaz.

"Azərbaycan yeni tarixi şərait və mərhələdə Ermənistanla əməkdaşlıq, konstruktiv dialoq tərəfdarı olduğunu bəyan edir. Bu gün Ermənistanın buna daha çox ehtiyacı var. Azərbaycanın məqsədi Cənubi Qafqazda harmoniya, ümumi inkişafa nail olmaqdır. Çünki belə bir inkişaf üçün Azərbaycan regionda açar dövlətdir. Azərbaycanın bütün regional və beynəlxalq iqtisadi layihələrdə həlledici mövqe tutması bunun bariz nümunəsidir. Ermənistan öz gələcəyini düşünürsə, qarşıdurma, konfrantasiya cəhdlərindən əl çəkməlidir. Belə addımlar onu daha çətin və ağır vəziyyətə sürükləyəcək.

Regional vəziyyətlə bağlı kifayət qədər məlumatı olmayanları Ermənistanın yalan iddiaları ilə aldatması qəbuledilməzdir. Son müharibə noyabrın 10-da bağlanan üçtərəfli Bəyanat ilə tamamlanıb. Həmin müddətdə hər iki tərəfdən əsir və girov götürülənlərin hamısı tam tərkibdə mübadilə edilib.

Bundan sonra hərbi əməliyyatları davam etdirənlər artıq terrorçulardır və onlar Azərbaycan qanunları və beynəlxalq hüququn norma və prinsipləri əsasında cinayətkarlar kimi mühakimə ediləcəklər", - deyə R.Hüseynov diqqətə çatdırıb.

Vurğulayıb ki, Ermənistan təmsilçiləri və onların havadarları məntiqdən, reallıqdan uzaq və qarşılıqlı qəbul edilmiş prinsiplərə zidd olan fitnəkar, saxta düşüncələrdən əl çəkməlidir. Ermənistan xalqının gələcəyindən, həqiqətən də, narahat olanlar bilməlidirlər ki, o xalqın gələcəyi üçün bu gün yalnız bir yol var. O da əməkdaşlıqdır. İki dövlət arasında da bu istiqamətdə artıq müəyyən vacib addımlar atılıb. Buradakı Ermənistan deputatlarının öz dövlətlərinin mövqeyi ilə uyğun gəlməyən davranışları nəyi ehtiva etməsi və haradan qaynaqlanması qaranlıq və anlaşılmazdır. Yəqin özləri bunun səbəbini daha yaxşı bilirlər. Ancaq erməni deputatları xalqlarını və ölkələrini uçuruma aparmaqdan çəkinməlidirlər.

Rafael Hüseynov parlamentarilərə üzünü tutaraq bildirib ki, Ermənistanın, eləcə də Cənubi Qafqazın xoşbəxt gələcəyinin yeganə düzgün düsturu konstruktiv əməkdaşlıqdır.

*Azərbaycan Ordusunun sentyabrın 27-də işğalçı Ermənistan silahlı qüvvələrinə qarşı başladığı əks-hücum əməliyyatında əldə etdiyi möhtəşəm qələbə təkcə Qafqaz regionunda deyil, bütün dünyada böyük əks-səda doğurdu. Aparılan döyüşlər noyabrın 10-da Azərbaycanın əzəli və əbədi parçası kimi Dağlıq Qarabağın və ətrafındakı ərazilərimizin birdəfəlik işğaldan azad olunmasına gətirib çıxardı, Ermənistan ordusunun tam məğlubiyyəti, kapitulyasiyası ilə yekunlaşdı. 44 gün davam etmiş "Dəmir Yumruq" əməliyyatı bütün dünyaya Azərbaycan dövlətinin qüdrətini, ordumuzun nəyə qadir olduğunu nümayiş etdirdi. Ay yarım ərzində rəsmi İrəvanın öz ordusu barədə yaratdığı mifik "məğlubedilməzlik" təsəvvürü kartondan düzəldilmiş daxma kimi uçulub dağıldı.*

*Analitik şərh*

# Hərb sənətimizin böyük Zəfəri



Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin iqtisadiyyatı gücləndikcə ordu quruculuğu prioritet sahə elan edilmiş, dünyanın müxtəlif aparıcı ölkələrindən ən müasir, yüksək dəqiqlikli silah və döyüş texnikası alınmışdı. 2016-cı ilin Aprel döyüşləri artıq Azərbaycan Silahlı Qüvvələrinin artan qüdrətindən xəbər verirdi. Həmin qarşıdurma zamanı ordumuz müasir silah və texnikadan istifadə etmişdi. O zaman hərbi bölmələrimiz havada ordumuzun üstünlüyünə nail olmaqdan ötrü PUA-lardan ilk dəfə istifadə etmişdi. Bu, düşmən üçün Azərbaycanın məqsədlərini açıq-aydın bildirən ciddi siqnal idi, ölkəmizin heç zaman Qarabağın işğalı faktı ilə barışmayacağını sübut edən güc nümayişi idi. Ancaq Ermənistan yetərincə sarsıdıcı zərbə alsa da, mənasız inadından əl çəkmədi.

Qırx dörd günlük müharibədə isə Silahlı Qüvvələrimiz ən müasir hərbi texnologiyadan, kəşfiyyat və zərbə pilotsuzlarından, həmçinin yüksək dəqiqlikli artilleriya silahlarından, Ermənistan ordusunun öncə görə bilmədiyi döyüş üsullarından istifadə etməklə Qarabağ səmasında hakim olduğunu, uzun illər ərzində döyüş hazırlığı sahəsində düşməni xeyli qabaqladığını, tamamilə yeni döyüş əməliyyatları modelinə yiyələndiyini bütün dünyaya sübut etdi və göstərdi ki, bu, gələcəkdə, ümumiyyətlə, hərb sənətində quru döyüşlərinin taktiki mənzərəsini tamamilə dəyişə bilər.

Vətən müharibəsində ordumuzun qazandığı böyük Qələbədə Şuşanın azad edilməsi isə Azərbaycan hərb tarixinin ən yaddaqalan şanlı səhifələrindəndir. Qoşunlarımızın bölmələri düşmənin gözləmədiyi istiqamətdən müdafiə mövqelərini yararaq təbii relyefinə və coğrafi mövqeyinə görə taktiki cəhətdən alınmaz qala hesab edilən Şuşa şəhərinə istiqamət götürdü, kəşfiyyat və zərbə PUA-larından yararlanmadan, Azərbaycan zabit və əsgərlərinin yenilməz iradəsi, yüksək döyüş ruhu və igidliyi ilə Azərbaycanın mədəniyyət beşiyini noyabrın 8-də düşməndən xilas etməyi bacardı. Həmin tarix ölkə təqviminə böyük Zəfər Günü kimi həkk edildi.

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Füzuli-Şuşa avtomobil yolunun təməlqoyma mərasimində Şuşanın azad edilməsinin tarixi əhəmiyyətindən danışarkən deyib: "Şuşanın işğaldan azad edilməsi bizim gücümüzü göstərdi. Ordumuzun peşəkarlığını, hərbçilərimizin cəsarətini, qəhrəmanlığını göstərdi. Şuşanın götürülməsi çox böyük peşəkarlıq, cəsarət tələb edən əməliyyat idi. Əminəm ki, bu əməliyyat dünya hərb tarixində xüsusi yer tutacaqdır. Çünki bu əməliyyatı yalnız yüngül silahlarla silahlanmış bizim qəhrəman hərbçilərimiz dağlardan, meşələrdən, cığırlardan keçərək icra ediblər. Şuşanın işğaldan azad edilməsi bizim şanlı Qələbəmizdir".

Azərbaycan Silahlı Qüvvələrinin həyata keçirdiyi hərbi əməliyyatlar dünya hərb dairələrinin diqqətini cəlb etdi və heyrətini doğurdu. Dünyanın güc mərkəzləri ordumuzun Qarabağda nümayiş etdirdiyi döyüş taktikası və istifadə etdiyi yüksək dəqiqlikli hərbi texnika, ən başlıcası isə Azərbaycan əsgərinin mətinliyi və cəsurluğunu hətta ölkəmizi gözü götürməyən hərbi mütəxəssislər, ekspertlər belə etiraf etməli oldular.

Müxtəlif media resurslarında çıxış edən tanınmış hərbi mütəxəssislər bildirirdilər ki, Vətən müharibəsi günlərində Qarabağda aparılmış hərbi əməliyyatlar dünya hərb sənətində yeni tendensiyalardan xəbər verir və əvvəlki müharibələrdən xeyli fərqlənir. Ən başlıcası ona görə ki, Azərbaycan düşmənlə mübarizədə yeni taktiki üsullardan, müasir silah və texnikadan istifadə edirdi.

Rusiyanın "Nasionalnaya oborona" jurnalının baş redaktoru, obyektiv təhlillərilə tanınmış rusiyalı hərbi ekspert İqor Korotçenko "Region plyus" jurnalına müsahibəsində Vətən müharibəsində Azərbaycan Silahlı Qüvvələrinin fəaliyyətini yüksək qiymətləndirib: "Dünya hələ belə bir vəziyyətlə rastlaşmamışdı ki, bir ordu digər ordu ilə vuruşarkən bu sayda yüksəkdəqiqlikli silahlardan istifadə edilsin. Zərbə uçuş aparatlarından istifadənin miqyasına və intensivliyinə görə bu, dünya tarixində ilk belə hadisədir. Nə ABŞ, nə Rusiya, nə İsrail, nə də hansısa başqa ölkə bu miqyasda pilotsuz zərbə uçuş aparatlarından istifadə etməyib. Pilotsuz uçuş aparatları bu cür münaqişələrdə özünün mübahisəsiz üstünlüyünü sübut edib. Buraya Azərbaycan Ordusu tərəfindən düşmənin canlı qüvvələrinin və hava hücumundan müdafiə vasitələrinin məhv edilməsi və daha sonra zirehli texnikanın, yüksək dərəcədə müdafiə olunan hədəflərin və canlı qüvvənin məhv edilməsi üçün pilotsuz uçuş aparatlarından geniş istifadə taktikasını da əlavə etmək lazımdır".

O da xoşdur ki, Azərbaycan Ordusunun Qarabağda nümayiş etdirdiyi yüksək hərbi keyfiyyətlər dünyanın aparıcı hərbi elmi mərkəzlərində təhlil obyektinə çevrilib. Rusiyada, Ukraynada, Gürcüstanda və bir sıra digər ölkələrdə Azərbaycan Silahlı Qüvvələrinin Vətən müharibəsində təcrübəsi yaxından öyrənilir və nümunə kimi qəbul edilir.

Maraqlıdır ki, ABŞ Ordusunun komandanlığı da ordumuzun Ermənistan qoşunlarına qarşı tətbiq etdiyi taktiki modeli araşdırmağa başlayıb. Bu barədə nüfuzlu "Breaking Defence" nəşri yazır. Onun yazdığına görə, Qarabağda kəşfiyyat və zərbə PUA-larının ənənəvi qüvvələrlə birgə tətbiqi yeni təcrübədir.

Silahlı Qüvvələrin modernləşdirilməsinə, gələcəyin döyüş sistemlərinin hazırlanmasına rəhbərlik edən Birləşmiş Ştatların Gələcəyin Ordusu Komandanlığından (Army Futures Command-AFC) yüksək rütbəli general anonimlik şərti ilə bildirib ki, Qarabağda gedən hərbi əməliyyatlar gələcəyin müharibələrində hadisələrin necə cərəyan edəcəyini təxmin etməyə imkan verir. (Army Futures Command strukturdur və 2018-ci ildə yaradılıb).

General deyib ki, Dağlıq Qarabağda Azərbaycan Ordusu erməni zirehli texnikasını sürətlə məhv etmək üçün nəinki kəşfiyyat, eləcə də zərbə PUA-larından, habelə "kamikadze-dronlardan" kütləvi şəkildə istifadə edib. Bu taktika Azərbaycan Ordusuna imkan verib ki, erməni qüvvələrini sürətlə məğlub edib irəliləsin.

Eyni zamanda, Azərbaycan əsgəri döyüş meydanında ortaya qoyduğu dəmir intizam, yüksək döyüş bacarığı ilə həm də regionumuzda və dünyada özünə və ölkəmizə böyük rəğbət qazandı.

Dünyanın nüfuzlu "Global Fire Power" araşdırma mərkəzi 2021-ci il üçün təqdim etdiyi dünya ordularının reytinqində ölkəmizin güc strukturu yetərincə yüksək yer tutub. Araşdırma zamanı əsasən ordular barədə bir sıra amillər, o cümlədən illik hərbi büdcə, orduda xidmət edən şəxsi heyətin, Hərbi Hava Qüvvələrinə məxsus təyyarə, pilotsuz uçan aparat və helikopterlərin, eyni zamanda, qırıcı təyyarələrin, tankların sayı və hərbi donanma üzrə göstəricilər nəzərə alınır.

"Global Fire Power"in yeni hesabatında Azərbaycan Ordusu 138 ordu arasında 64-cü pillədə qərarlaşıb və Cənubi Qafqazın ən güclü müdafiə təşkilatıdır. Bolqarıstan, Belçika kimi Avropa dövlətləri Azərbaycandan sonrakı mövqelərdə qərar tutub. Qonşu Gürcüstan siyahıda 92, Ermənistan isə 100-cü yerdədir.

Bütün bunlar bir daha göstərir ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrinin Vətən müharibəsində qazandığı tarixi Zəfər Azərbaycanın bir dövlət olaraq qüdrətinin bariz təzahürüdür.

**Əbülfət QASIMOV,**
**ehtiyatda olan zabit**

# Vətəni ruhunuzla sevdiniz

*Məşhur rus yazıçısı Lev Tolstoy əsərlərinin birində bildirib: "Azadlığa təzyiq göstərməklə ona meyli daha da gücləndirmiş oluruq".*

Azadlıq... Qüdrətli və sarsılmaz məfhum... Uğrunda al qanlar töküldü. Kimisi döyüşlərdə qazi adı qazandı, kimisi ömrünü torpaqlarımızın azadlığı naminə qurban verdi. Pərvanələr məhv olacaqlarını bilə-bilə özlərini oda atarlar.

2021-ci ildən o qədər də uzaq olmayan yaxın keçmişimizə nəzər saldıqda 1990-cı illərin hadisələri mənə nağıl kimi görünür. Proseslərin mahiyyətini dərk etmək çətinlik törədir. Birinci Qarabağ döyüşlərindən 30 il sonra biz də müharibənin qanqadasını gördük, onun şahidlərindən birinə çevrildik. Ancaq Vətən müharibəsi həmin döyüşlərdən çox fərqlənir. Bu döyüş bizim haqq savaşımız idi. Haqlı tərəf hər zaman qalib olur. Vətən müharibəsində zəfər çaldıq. Bənövşələr daha utanıb gözlərini torpağa zilləməyəcək, Xarı bülbül dərdli nəğmələri unudacaq. 2020-ci ilin 44 günü möhtəşəmliyi ilə fərqləndi. Mənə elə gəldi ki, ilimizi 44 günə sığdırdıq. Xalqımız haqqına qovuşdu, ədaləti bərpa etdi. Hər xəbərdən qəhərlənir, gözlərimiz dolurdu. Bu göz yaşları sevinc göz yaşları idi. Torpaqlarımız azad olundu. Xarı bülbül şəhidin nəfəsiylə ətirləndi. O da sevincdən ağladı. Üzünü azan səsi yüksələn minarələrə çevirdi.

Bəlkə də gələcək nəsillər müharibə görməyəcək, qayğısız böyüyəcəklər. Hər bir halda 44 günün uğurunu bizə qazandıran döyüşçülərə borcluyuq. Torpağa söykəndin və torpaqlarımızı azad etdin, Azərbaycan əsgəri! Bu gün Azərbaycanın dillər dastanı olan qəhrəmanları var, Xudayarları var, Elşən Möhbalıyevləri var, həkim olsa da, öz yarasını sarımağa macal tapmayan Turqut Xəlilbəylilləri var.

Hər bir şəhidi elin əzizi kimi son mənzilə yola saldıq.

Hamı sizdən öyrənəcək yenilməzliyi, cəsarəti, Azərbaycan əsgəri! Tək amalımız var idi, o da Qarabağ. Vətən üçün canından keçmək müqəddəs sevgidir. Vətəni belə sevmək ruhla bağlı məsələdir. Vətəni ruhunuzla sevdiniz. Şəhidlər ölmürlər!

**Hüsniyyə İDRİSOVA,**
**BSU-nun IV kurs tələbəsi**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Suallar:**
**1. Qədim Azərbaycanda dövlətçilik ənənələri.**
**2. Orta əsrlər Azərbaycan dövlətləri haqqında.**
**3. XIX əsrdə Azərbaycanın Rusiya tərəfindən işğalı ərəfəsində Azərbaycan dövlətçiliyi.**
**4. Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əbədidir.**

**Mövzu:** Azərbaycan dövlətçiliyinin yaranma tarixi və inkişaf mərhələləri.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə bu dərsə hazırlaşarkən Azərbaycan tarixinə dair tarixi və digər müvafiq ədəbiyyatdan istifadə etmək və mövzunu bölmənin gündəlik həyatı ilə bağlamaq tövsiyə olunur.*

*Qədim Azərbaycanda dövlətçilik ənənələri*

XX yüzilliyin sonunda yenidən müstəqilliyinə qovuşan Azərbaycan xalqı qədim və zəngin dövlətçilik tarixinə malikdir. Tarixi Azərbaycan torpaqları müasir sivilizasiyanın inkişafa başladığı ən qədim mədəniyyət mərkəzlərindən biridir.

Azərbaycanlılar həm də dünyanın ən qədim dövlətçilik ənənələrinə malik olan xalqlarındandır. Azərbaycan torpaqlarında dövlətçilik ənənələrinin təqribən 5 minillik tarixi var. Azərbaycan ərazisində ilk dövlət qurumları və ya etnik-siyasi birliklər hələ eramızdan əvvəl IV minilliyin sonu - III minilliyin əvvəllərindən başlayaraq yaranıb. Eramızdan əvvəl I minilliyin və bizim eranın I minilliyinin əvvəllərində Azərbaycan torpaqlarında Manna, Midiya, Atropatena və Albaniya kimi qüvvətli dövlətlər mövcud olub.

Manna dövləti yalnız Azərbaycanın deyil, eləcə də dünyanın dövlətçilik mədəniyyəti tarixində mühüm yer tutur. Eramızdan əvvəl VIII əsrin sonu - VII əsrin əvvəllərindən başlayaraq Azərbaycanın hərbi-siyasi tarixində kimmerlər və iskitlər, həmçinin iskitlərlə eyni kökdən olan saklar və massagetlər mühüm rol oynamağa başladılar.

Sonrakı dövrlərdə nə Əhəməni-İran imperiyasının uzun sürən işğal rejimi, nə də Makedoniyalı İsgəndərin yürüşləri Azərbaycanın qədim dövlət idarəçiliyi mədəniyyətini məhv edə bilməyib. Makedoniyalı İsgəndərin ölümündən dərhal sonra Azərbaycan dövlətçiliyi yenidən dirçəlib. Ölkəmizin cənub torpaqlarında Atropatena, şimalında isə Albaniya dövlətləri meydana gəlib. III əsrdə Azərbaycanı Sasani-İran imperiyası, VII əsrdə isə Ərəb xilafəti işğal etdi. İşğalçılar ölkəyə çoxsaylı irandilli və ərəb mənşəli əhali köçürdülər. Lakin bütün bunlar Azərbaycanın qədim dövlətçilik ənənələrini məhv edə bilmədi və Azərbaycan xalqının təşəkkülü prosesi davam etdi. Uzun tarixi dövr ərzində Azərbaycanın bütöv halda həmin imperiyaların tərkibində olması nəticəsində ölkənin bütün bölgələri arasında daxili əlaqələr, ilk növbədə, ticarət əlaqələri genişləndi. Azərbaycanın şimal və cənub, şərq və qərb bölgələri arasında etnik-siyasi və mədəni birliyin yaranması yolunda mühüm irəliləyiş baş verdi.

*Orta əsrlər Azərbaycan dövlətləri haqqında*

Xilafət dağıldıqdan sonra - IX əsrin ortalarından Azərbaycanın qədim dövlətçilik ənənələri yenidən dirçəldi. Azərbaycan torpaqlarında Sacilər, Şirvanşahlar, Salarilər, Rəvvadilər, Şəddadilər dövlətləri yarandı. Siyasi, iqtisadi və mədəni həyatın bütün sahələrində oyanış baş verdi. 600 ilə qədər davam edən sasani və ərəb əsarətindən sonra yerli dövlətlərin yaranması, İslam dininin bütün ölkə ərazisində yayılması Azərbaycanın sonrakı inkişafında mühüm rol oynadı. Azərbaycan Orta Asiyadan Aralıq dənizi sahillərinə və Dərbənd keçidindən İran körfəzinə qədər geniş əraziləri əhatə edən Böyük Səlcuq imperatorluğunun tərkibinə daxil edildi. Böyük Səlcuq imperatorluğunun süqutundan sonra qüvvətlənən Şirvanşahlar və Eldənizlər dövlətləri Azərbaycan xalqının dövlətçilik ənənələrinin davam etdirilməsində və daha da yüksəlişində mühüm rol oynadılar. Yaxın və Orta Şərqin ən qüdrətli dövlətinə çevrilən Azərbaycan Eldənizlər dövləti xalqımızın etnik-siyasi tarixində xüsusi çəkiyə malikdir.

XV-XVIII əsrlərdə Azərbaycanın dövlətçilik mədəniyyəti daha da zənginləşdi. Bu dövrdə Şərqin geniş ərazili Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi dövlətləri bilavasitə Azərbaycan sülalələri tərəfindən idarə olunurdu. XV əsrin sonu - XVI əsrin əvvəllərində Azərbaycan dövlətçiliyi özünün tarixi təkamülündə yeni mərhələyə qədəm qoydu. Uzun Həsənin nəvəsi, görkəmli dövlət xadimi Şah İsmayıl Xətai bütün Azərbaycan torpaqlarını öz hakimiyyəti altında birləşdirə bildi. Paytaxtı Təbriz şəhəri olan vahid, mərkəzləşdirilmiş Azərbaycan dövləti - Səfəvi dövləti meydana gəldi. Səfəvilərin hakimiyyəti dövründə Azərbaycanın dövlət idarəçiliyi mədəniyyəti daha da yüksəldi. Şah İsmayıl, Şah Təhmasib, Şah Abbas və digər Səfəvi hökmdarlarının fəaliyyəti, uğurlu daxili və xarici siyasəti nəticəsində Səfəvi dövləti qısa müddətdən sonra Yaxın və Orta Şərqin ən qüdrətli imperiyalarından birinə çevrildi.

Səfəvi dövlətinin süqutundan sonra hakimiyyətə gələn görkəmli Azərbaycan sərkərdəsi Nadir şah (1736-1747) keçmiş Səfəvi imperiyasının sərhədlərini daha da genişləndirdi. Bu böyük hökmdar 1739-cu ildə Dehli də daxil olmaqla, Şimali Hindistanı ələ keçirdi. Lakin onun bu geniş ərazidə qüdrətli mərkəzləşdirilmiş dövlət yaratmaq planları baş tutmadı. Nadir şahın ölümündən sonra onun idarə etdiyi geniş ərazili imperiya süquta uğradı.

Beləliklə, XVIII əsrin ikinci yarısında Azərbaycan xırda dövlətlərə - xanlıqlara və sultanlıqlara parçalandı. Ölkənin hərbi-siyasi tənəzzül dövrü başlandı. Azərbaycanın qədim dövlətçilik ənənələrini yaşatmağa çalışan ayrı-ayrı xanlar bütün ölkəni yenidən vahid dövlət çərçivəsində birləşdirməyə çalışsalar da, bu, heç bir nəticə vermədi. Siyasi pərakəndəlik daha da dərinləşdi. Bununla da Azərbaycanı işğal etməyə çalışan yadelli təcavüzkarların əlinə çox əlverişli fürsət düşdü. Azərbaycan iki böyük dövlət arasında (Rusiya və İran) qanlı müharibələr meydanına çevrildi. Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələrinə əsasən Azərbaycan torpaqları iki imperiya arasında bölüşdürüldü: Azərbaycanın şimalı Rusiyaya, cənubu isə Qacarların idarə etdiyi İran şahlığına qatıldı.

*XIX əsrdə Azərbaycanın Rusiya tərəfindən işğalı ərəfəsində Azərbaycan dövlətçiliyi*

1918-ci il mayın 28-də müsəlman Şərqində ilk demokratik parlament respublikası - Azərbaycan Xalq Cümhuriyyəti elan edildi. Yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni imkanlarının ən son həddində çalışaraq şərəflə yerinə yetirdi. Azərbaycanda müstəqil, demokratik dövlət quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi, ilk parlament və hökumət, dövlət aparatı, idarəetmə institutları formalaşdırıldı. Ölkənin sərhədləri müəyyənləşdirildi, qısa müddətdə yüksək döyüş qabiliyyətli hərbi hissələr yaradıldı, ərazi bütövlüyü və milli təhlükəsizliyin təmin edilməsi üçün mühüm işlər görüldü. Dövlət bayrağı, himni və gerbi qəbul edildi, ana dili dövlət dili elan olundu, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi və xalqın, milli dövlətçiliyin sonrakı illərdə hərtərəfli inkişafı üçün müstəsna əhəmiyyət kəsb edən digər mühüm məsələlərin həlli istiqamətində məqsədyönlü addımlar atıldı.

Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi aradan qaldırdı. Şərqdə ilk dəfə və bəzi Avropa ölkələrindən xeyli əvvəl Azərbaycanda qadınlara seçki hüququ verildi. Təəssüf ki, Azərbaycan Xalq Cümhuriyyətinin ilk qərarlarından biri olduqca mürəkkəb tarixi şəraitdə - erməni hərbi birləşmələrinin azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti və özlərinə dövlət qurmaq üçün torpaq iddiaları irəli sürməsi şəraitində, Batumi danışıqları nəticəsində əldə edilmiş kompromis varianta əsasən İrəvanın paytaxt kimi Ermənistana verilməsi oldu. Bu böyük tarixi səhv Azərbaycan xalqının həyatında növbəti faciələrə və ermənilərin davamlı ekspansiyasına (təsir dairəsinin genişləndirilməsi) yol açdı.

1918-ci il dekabrın 7-də H.Z.Tağıyevin qızlar məktəbinin binasında (hazırda Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun yerləşdiyi bina) Azərbaycan Parlamentinin təntənəli açılışı oldu. Bu, bütün Müsəlman Şərqində o dövrün ən mütərəqqi, demokratik prinsipləri əsasında formalaşdırılmış ilk qanunverici orqan idi. Azərbaycan Xalq Cümhuriyyəti daim sülhsevər siyasət apararaq bütün dövlətlərlə qarşılıqlı əməkdaşlıq əlaqələri yaratmağa və bir-birinin hüquqlarına hörmət prinsipləri əsasında münasibətlər qurmağa cəhd göstərirdi. Xalq Cümhuriyyətinin fəaliyyəti sayəsində Azərbaycanın beynəlxalq hüququn subyektinə çevrilməsi 1920-ci ilin aprel ayındakı bolşevik işğalından sonra onun bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinməsinin qarşısını aldı. Sovet İttifaqı dövründə Zəngəzur, Göyçə, Naxçıvanın bir hissəsi və digər rayonlar Azərbaycandan alınaraq Ermənistana birləşdirildi. Nəticədə, Azərbaycan Xalq Cümhuriyyəti dövründə 114 min kvadratkilometrə bərabər olan ölkə ərazisi 86,6 min kvadratkilometrə qədər azaldıldı. Bundan başqa, 1923-cü il iyulun 7-də bolşevik liderlərin təşəbbüsü ilə Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldı. Bu qərar Dağlıq Qarabağın Azərbaycan ərazisindən ayrılması istiqamətində atılmış birinci addım oldu.

Azərbaycanda sovet hakimiyyətinə qarşı müqavimət qəddarcasına, sürgünlərlə, repressiyalarla cavablandırıldı. 1937-ci il repressiyaları zamanı sovet hakimiyyəti ilə barışmayan Azərbaycan xalqının görkəmli ziyalılarının əksəriyyəti müxtəlif bəhanələrlə həbs edildi, Sibirə, Qazaxıstan çöllərinə sürgün edildi, bir çoxu güllələndi.

Azərbaycan xalqı II Dünya müharibəsi illərində böyük fədakarlıq göstərdi, Azərbaycan diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçdilər. Bakı nefti faşizm üzərində qələbənin əldə olunmasında mühüm rol oynadı.

1969-cu il iyulun 14-də ulu öndər Heydər Əliyevin respublika rəhbərliyinə gəlməsi Azərbaycanın qarşısında duran bir çox taleyüklü suallara aydın cavablar tapılması və onların ardıcıllıqla həll edilməsi baxımından tarixi hadisə oldu. Bütün məhrumiyyətlərə baxmayaraq, sovet hakimiyyəti illərində, xüsusilə 1969-1982-ci illərdə əldə olunmuş nəhəng potensial XX əsrin sonunda yenidən müstəqilliyinə qovuşmuş dövlətimiz üçün çox gərəkli oldu.

*Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əbədidir*

1991-ci il oktyabrın 18-də Azərbaycan dövlət müstəqilliyinə qovuşarkən özünü Xalq Cümhuriyyətinin siyasi və hüquqi varisi elan etdi və qədim dövlətçilik ənənələrinə sadiq qaldığını göstərdi. Az müddət sonra Azərbaycan Xalq Cümhuriyyəti dövrünün dövlət rəmzləri bərpa edildi. Xalqın iradəsi ilə müstəqilliyini elan etmiş Azərbaycan Respublikası çox mürəkkəb şəraitdə fəaliyyət göstərməyə başladı. Ermənistanın Azərbaycana qarşı təcavüzünün genişlənməsi, hakimiyyət uğrunda daxili çəkişmələr, iqtisadiyyatın çökməsi ölkəni xeyli zəiflətdi. Azərbaycan Xalq Cəbhəsi-Müsavat iqtidarı yarıtmaz fəaliyyəti ilə ölkəni parçalanmaq həddinə çatdırdı.

Azərbaycanda dövlətçilik ənənələrinin bərpa edilib inkişaf etdirilməsi, müstəqilliyimizin möhkəmləndirilməsi, onun əbədi və dönməz xarakter alması, beynəlxalq nüfuzunun sürətlə artması, məhz ümummilli lider Heydər Əliyevin fəaliyyəti sayəsində mümkün olub. Ulu Öndər hakimiyyətə gələrək, pərakəndə halda olan dövləti inkişaf edən hüquq sisteminə çevirməyə müvəffəq oldu. Formal olaraq, müstəqil olan ölkədə dövlətçilik ənənələrini formalaşdırdı. Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Heydər Əliyev siyasətinin layiqli varisi olaraq, xalqın etimadına söykənən siyasi fəaliyyəti ilə ölkəni ən qabaqcıl dövlətlər sırasına yüksəltməkdə davam edir. Məhz ümummilli lider Heydər Əliyevin xidmətləri nəticəsində hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolu ilə inamla irəliləyən müstəqil respublikamızda vətəndaş cəmiyyətinin formalaşması, qanunun aliliyinin təmin edilməsi, dilindən, dinindən asılı olmayaraq, bütün vətəndaşların hüquq və azadlıqlarının qorunması üçün ən yüksək tələblərə cavab verən normativ-hüquqi baza yaradılıb.

Hüquqa və ədalətə söykənən vətəndaş cəmiyyətinin əsası qoyulub və onun təkmilləşdirilməsi üçün etibarlı zəmin yaradılıb. Təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş demokratik dövlət quruculuğu prosesi bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun uzun illərdən bəri düşmən tapdağı altında qalmış torpaqlarını işğaldan azad etməsi, ərazi bütövlüyünü təmin etməsi dövlətçilik ənənələrinin bərpa edilərək inkişaf etdirilməsinin bariz nümunəsidir.

Hər bir Azərbaycan vətəndaşı Azərbaycan dövlətçiliyinin tarixini bilməli və onunla fəxr etməlidir. Bu gün hər birimiz əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirilən dövlətçilik amallarını, yüksək ideyalarını yaşatmaq və gələcək nəslə çatdırmaq, Azərbaycan tarixinin yeni şanlı səhifələrini yazmaq naminə onun ətrafında sıx birləşərək, əlimizdən gələni əsirgəməməliyik.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# Hərbi Dəniz Qüvvələrinin nümayəndə heyəti Türkiyədə səfərdə olub

*Azərbaycan Hərbi Dəniz Qüvvələrinin nümayəndə heyəti "Azərbaycan-Türkiyə Hərbi Dəniz Qüvvələri arasında 8-ci Qərargah danışıqları" toplantısında iştirak etmək məqsədilə Ankara şəhərinə səfər edib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə iki ölkənin hərbi dəniz qüvvələri arasında əməkdaşlıq məsələləri müzakirə olunub, qarşılıqlı təcrübə mübadiləsinin əhəmiyyəti vurğulanıb və müxtəlif məsələlər üzrə fikir mübadiləsi aparılıb.

Səfər zamanı nümayəndə heyəti Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün dəfn olunduğu məqbərəni - Anıtqəbiri ziyarət edib, məzar önünə əklil qoyub və xatirəsini ehtiramla yad edib.

# "Koronavirusa qarşı peyvəndin çatdırılmasında problemlər mövcuddur"

Avropa Şurası Parlament Assambleyasının qış sessiyasının üçüncü iş günü dünyada 2 milyondan çox insanın həyatına son qoymuş COVID-19 infeksiyası ilə bağlı "COVID-19 peyvəndi: etik, qanuni və praktiki mülahizələr" adlı məruzənin dinlənilməsi ilə başlayıb.

AZƏRTAC xəbər verir ki, məruzənin təqdimatından sonra Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Adhanom Qebreyesus çıxış edib.

ÜST-nin Baş direktoru koronavirusa qarşı peyvənd haqqında məlumat verərək, artıq 5 istehsalçı tərəfindən 2 milyard peyvəndin istehsal edildiyini diqqətə çatdırıb. Ancaq peyvəndin qeyri-bərabər paylanıldığını qeyd edib. Vurğulayıb ki, bəzi ölkə və şirkətlər peyvəndin qiymətini süni şəkildə artırır.

Həmçinin Baş direktor logistika və şəffaflıq sahələrində problemlərin olduğunu da deyib. Diqqətə çatdırıb ki, peyvəndin əlçatanlığına maneə yaradan mövcud problemlər aradan qaldırılmasa, COVID-19 pandemiyasının yaratdığı gərginlik davam edəcək.

Həmçinin Baş direktor logistika və şəffaflıq sahələrində problemlərin olduğunu da deyib. Diqqətə çatdırıb ki, peyvəndin əlçatanlığına maneə yaradan mövcud problemlər aradan qaldırılmasa, COVID-19 pandemiyasının yaratdığı gərginlik davam edəcək.

Sessiya parlamentarilərin müzakirələri ilə davam edir.

# Vətən müharibəsində tarix yazan şəhidimiz

*Azərbaycan Ordusu 44 günlük əks-hücum əməliyyatlarını müvəffəqiyyətlə tamamlayaraq, Şanlı Zəfər qazandı. İyirmi səkkiz illik həsrət qələbə ilə sona çatdı. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz düşməni məhv edərək torpaqlarımızdan qovub çıxardı. Sözsüz, tarixi qələbəmiz unudulmaz şəhidlərimizin, qazilərimizin qanı, canı, mərdliyi ilə savaş meydanında qazanılıb.*




Vətən müharibəsində tarix yazan şəhidlərdən biri də Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak etmiş və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirmiş "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə (ölümündən sonra) təltif edilən Silahlı Qüvvələrin əsgəri Cabbarov Akif Elxan oğludur.

Qarabağ müharibəsində qanı ilə tarix yazan igidimiz 1997-ci il sentyabrın 20-də Gədəbəy rayonunda dünyaya göz açıb. Orta məktəbi Şəmkir rayonu Könüllü kəndində bitirən Akif anası ilə birgə 2014-cü ildə Sumqayıt şəhərinə köçür. Dayısı Möhübbət kişinin və onu anası kimi sevən Nigar xanımın evinə pənah gətirib.

Akif uşaq vaxtından zəhmətə qatılıb, Sumqayıtda da fəhləlik edərək anasına yardımçı olub. 2016-cı ildə əsgərliyə çağırılıb və elə həmin il anası Ayşanı itirib. Qəhrəmanımızın yaşadığı həyat heç də asan olmayıb, lakin hər igid kimi qəlbi Vətən eşqi ilə döyünüb.

General-mayor Polad Həşimovun ölümü onu çox sarsıdır. Sentyabrın 27-də Vətən müharibəsi başlayanda Akif könüllü olaraq Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət edir və Vətən borcunu ödəmək üçün döyüşlərə qatılır.



Möhübbət kişinin süfrəsi ətrafına yığışan Akifin xalalaları - Maya, Aynurə, Xalidə, qonşuları Fəxriyyə və Nargilə AZƏRTAC-a qəhrəmanla bağlı xatirələri yada salırlar...

"Akif əsgərlikdə olduğu zaman Aprel döyüşlərində iştirak edib. O, hər zaman torpaqlarımızın azad olunması üçün sona qədər döyüşməyə hazıram, deyərdi. Dedi və elə sözünə də sadiq çıxdı", - bu sözləri göz yaşlarını boğaraq Akifə analıq şəfqəti göstərən, artıq iki əzizi şəhidlik zirvəsinə ucalan Maya xalası deyir. Onun da həyat yoldaşı Həsənov Sərdar Rəşid oğlu 1994-cü ildə Ağdərə döyüşlərində şəhid olub. - Müharibənin əvvəl günləri tez-tez evə zəng edirdi, hamını bir-bir soruşurdu. Ümumiyyətlə, Akif çox istiqanlı və qayğıkeş övlad olub. Suqovuşan, Füzuli uğrunda döyüşlərdə iştirak edib.

Ölümündən bir gün qabaq oktyabrın 24-də axşam evə zəng edib hamını soruşub. Hər dəfə həsrətlə onun zəngini gözləyən qohumları ilə birgə ailənin doğması - qonşuları Fəxriyyəni də unutmayıb. "Fəxr edirəm ki, Akif kimi mərd, dürüst, düşmənə qarşı aslan kimi vuruşan oğulu tanımışam", - deyən Fəxriyyə Azərbaycan xalqının hər bir şəhidi ilə qürur duyduğunu vurğulayıb.

Akif inanclı, hər dəfə namaz üstündə millətinə dua edən, vətənpərvər, dostluqda mərd oğlan olub. Elə dostları da unutmadı Akifi. Sumqayıtdakı "İnşaatçılar" yaşayış massivində evinin yanında xatirə bulağı yaradıblar.

Akif oktyabrın 25-də Füzulinin Alıxanlı kəndində həlak olub və Sumqayıtdakı Şəhidlər xiyabanında dəfn olunub.

Allah rəhmət eləsin!

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyədə İŞİD üzvlərinin saxlanılması istiqamətində irimiqyaslı əməliyyat keçirilib



Başda Balıkesir olmaqla Türkiyənin 58 vilayətində İŞİD terror təşkilatının üzvlərinin saxlanılması istiqamətində genişmiqyaslı əməliyyat keçirilib.

Əməliyyat nəticəsində İŞİD terror təşkilatı ilə əlaqədə olmaqda və terrorçulara maddi dəstək göstərməkdə təqsirləndirilən 148 nəfərdən 126-sı saxlanılıb.

Saxlanılan şəxslərin evlərində axtarış aparılan zaman terror təşkilatına aid çoxlu sayda rəqəmsal material, sənədlər, silah və maddi vəsait aşkarlanaraq götürülüb.

Digər 22 şübhəlinin saxlanılması istiqamətində əməliyyatlar davam etdirilir.

## Ukrayna Hərbi Dəniz Qüvvələri bu il "Bayraktar TB2" pilotsuz aparatlar kompleksini alacaq



Bu il Ukrayna Hərbi Dəniz Qüvvələri Türkiyə istehsalı olan "Bayraktar TB2" pilotsuz aparatlar kompleksini alacaq.

Bu barədə Ukrayna Hərbi Dəniz Qüvvələrinin komandanı, kontr-admiral Aleksey Neijpapa Odessa şəhərindəki Türkiyənin "Baykar Makina" şirkətinin nümayəndələri ilə görüş zamanı bildirib.

"Bu il Ukraynanın Hərbi Dəniz Qüvvələri həm quruda, həm də dənizdə fəaliyyət göstərəcək pilotsuz aparatlar kompleksini əldə edəcək", - deyə Ukrayna Hərbi Dəniz Qüvvələrinin komandanı vurğulayıb.

"Baykar Makina" şirkətinin Baş direktoru Haluk Bayraktar isə deyib: "Biz pilotsuz uçuş kompleksləri hazırlayırıq. Ukraynaya dəstək olaraq ən son texnologiyaları təqdim edirik. Biz qarşıya qoyduğumuz məqsədlərə birgə nail olmaq üçün Ukrayna tərəfdaşları ilə öz təcrübəmizi həmişə bölüşəcəyik".

## Malidə hərbi əməliyyat zamanı 100 terrorçu məhv edilib



Malidə Fransa hərbçiləri və ordunun keçirdiyi birgə hərbi əməliyyat zamanı 100 terrorçunun məhv edildiyi bildirilir. Mali ordusunun yaydığı məlumatda daha 20 terrorçunun, habelə çoxlu sayda avtomobil və silah-sursatın ələ keçirildiyi qeyd olunub. Fransanın keçmiş müstəmləkəsi olmuş və hazırda fransız hərbi kontingentinin yerləşdiyi bu ölkənin şimalında "cihadçı" adlandırılan silahlı qruplaşma ilə döyüşlər davam edir. Malinin Burkina Faso və Niger ilə sərhədində isə qəbilələr arasında silahlı münaqişə də alovlanıb.

Mali hökuməti "Əl-Qaidə" terror təşkilatına bağlı olan silahlı qruplaşmanın tezliklə tam zərərsizləşdirəcəyini bəyan edib.

## Avropa və ABŞ banklarına 2,5 milyard dollar ziyan vuran ukraynalı haker qrupu zərərsizləşdirilib



Avropa və ABŞ banklarına təxminən 2,5 milyard dollar ziyan vuran ukraynalı haker qrupu zərərsizləşdirilib.

Bu barədə Ukrayna Baş Prokurorluğunun mətbuat xidməti məlumat yayıb.

Bildirilib ki, onlar Avropa və ABŞ-ın bank serverlərinə kütləvi kiber hücum edərək 2,5 milyard dollar həcmində pulu mənimsəyə biliblər. Haker qrupu 2014-cü ildən Xarkov şəhəri və vilayəti ərazisində fəaliyyət göstərib. Axtarışlar zamanı kompüter və server avadanlığı aşkar edilərək ələ keçirilib. Qrup üzvləri barəsində həbs qətimkan tədbirinin seçilməsi üçün sübutlar toplanılır. Faktla bağlı cinayət işi açılıb.

**AZƏRTAC-ın materialları əsasında**

# Horadiz-Füzuli istiqamətində ərazilərin minalardan təmizlənməsi işləri davam etdirilir



*Yanvarın 26-da bir qrup media nümayəndəsinin iştirakı ilə Horadiz-Füzuli istiqamətində Azərbaycan Ordusunun mühəndis qoşunlarının istehkamçılarının yerinə yetirdikləri bəzi tapşırıqların praktik nümayişi olub.*

AZƏRTAC xəbər verir ki, istehkamçılar kommunikasiya sistemlərinin, yolların, əkin sahələrinin təmizlənməsini nümayiş etdiriblər.

Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov bildirib ki, Müzəffər Ali Baş Komandanın əmri ilə 44 günlük Vətən müharibəsi başlandığı andan mühəndis qoşunlarının hissə və bölmələri düşmənin uzun illər ərzində yaratdığı, dərinliyə doğru partlayan və partlamayan maneələrlə kombinə edilmiş bir neçə yaruslu müdafiə sisteminin yarılması və qoşunların hərəkətinin təmin olunması tapşırığını uğurla yerinə yetiriblər.

Düşmənin özü-özlüyündə keçilməsini mümkünsüz hesab etdiyi maneələr sistemi mühəndis qoşunlarımızın yüksək döyüş hazırlığı və müasir silahlarla komplektləşməsi sayəsində peşəkarlıqla dəf edilib. Ötən il sentyabrın 27-də mühəndis bölmələri tərkibindən maneə ləğvetmə qrupları yaradılaraq xüsusi təyinatlı bölmələr daxil olmaqla əks-hücuma keçən bütün bölmələrin tərkibinə verilib və bu bölmələrin maneəsiz hərəkəti təmin olunub. İlkin mərhələdə partlayış və əl üsulu ilə bölmələrin və texnikaların maneəsiz irəliləməsi məqsədilə düşmənin mina partlayışlı maneələrindən keçidlər açılıb, maneə və dağıntılardan qoşunların keçidi təmin edilib.

Anar Eyvazov qeyd edib ki, düşmən geri çəkilərkən hərəkət marşrutlarında və yollarda xeyli sayda mina partlayışlı maneələr quraşdırıb, mövcud körpüləri partlayışa hazırlayıb və bunların bir qismini partladaraq maneə və dağıntılar yaradıb. Hücum zamanı mühəndis bölmələri bu maneələrin mühəndis kəşfiyyatını apararaq mina partlayışlı maneələri zərərsizləşdiriblər. Bundan başqa, partladılmış körpülərin ətrafından mümkün olan yerlərdən alternativ yollar hazırlanıb, mümkün olmayan istiqamətlərdə isə tank körpüquranları vasitəsilə körpülər qurulub və qoşunların fasiləsiz hərəkəti təmin olunub.

Diqqətə çatdırılıb ki, ümumiyyətlə döyüş əməliyyatları aparılan bütün istiqamətlərdə mühəndis təminatı tapşırıqları uğurla icra olunub. Əməliyyatların gedişatı zamanı qoşunların irəliləməsinin təmin olunması məqsədilə mövcud yolların bərpası və yeni yolların çəkilməsi tapşırığı da yüksək peşəkarlıqla icra edilib.

Böyüktaqlar-Çanaqçı-Sığnaq-Daşaltı-Şuşa istiqamətlərində əks-hücum edən bölmələrin irəliləməsini təmin etmək, eləcə də artilleriya, HHM, tank və MTT bölmələrinin bu istiqamətlərdə hərəkət etməsi məqsədilə qısa müddət ərzində meşəli-dağlı ərazilərdən kalon yolu salınıb, mövcud olan Daşaltı-Şuşa yolu qısa vaxtda minalardan təmizlənib, bununla da Şuşa şəhərinin işğaldan azad olunmasında mühəndis təminatı icra olunub.

Keçən il noyabrın 10-dan sonra Ağdam, Kəlbəcər, Laçın rayonlarına aparan yollar da qısa müddət ərzində minalardan təmizlənib, maneələr aradan qaldırılıb.

Əldə olunan böyük uğurlarda mühəndis qoşunlarının hissə və bölmələrinin hər bir hərbi qulluqçusu yüksək qəhrəmanlıq göstərib. Döyüş əməliyyatlarında mühəndis qoşunlarının istehkamçılarından 27 nəfər şəhid olub, 143 nəfər isə yaralanıb.

Hərbi qulluqçuların göstərdiyi peşəkarlıq Müzəffər Ali Baş Komandanımız tərəfindən yüksək qiymətləndirilib. Vətən müharibəsində göstərdiyi qəhrəmanlıq və şücaətə, o cümlədən döyüş meydanında vəzifə borcunu layiqincə yerinə yetirdiyinə görə mühəndis qoşunlarının 30 nəfərdən çox hərbi qulluqçusu ordenlə, 400-dən çox hərbi qulluqçusu isə müxtəlif medalla təltif olunub.

Bundan başqa, Azərbaycan Respublikasının Müdafiə naziri tərəfindən 300 nəfərdən çox hərbi qulluqçu medalla təltif edilib.



Vətən müharibəsindən sonra Müzəffər Ali Baş Komandanın göstərişi ilə mühəndis qoşunlarının hissə və bölmələri işğaldan azad edilən ərazilərdə mina və partlamamış döyüş sursatlarının təmizlənməsi, o cümlədən yolların bərpası, yeni yolların çəkilməsi və azad edilmiş rayonlarda hədlər boyu tərtiblənməsi üzrə mühəndis təminatı tapşırıqlarını yerinə yetirirlər.



Mühəndis Qoşunları İdarəsinin rəis müavini Ceyhun Cəfərov açıqlamasında da deyib ki, bu günədək Cəbrayıl, Füzuli və Ağdam rayonları üzrə 2200 hektardan çox əkin sahəsi üçün yararlı ərazi mina və partlamamış hərbi sursatlardan tam təmizlənib. Əlavə 92 hektar digər təyinatlı ərazilərdə tam təmizlənmə işləri yerinə yetirilib.

İşğaldan azad olunan ərazilərdə mövcud yolların mina və hərbi sursatlardan təmizlənərək bərpası və yeni yolların çəkilməsi işləri də aparılır. Paralel olaraq digər dövlət qurumları ilə birgə kommunikasiya xətlərinin çəkilməsi üçün həmin xətlərin keçdiyi ərazilərə ayrılan qruplar tərəfindən mina təmizləmə tapşırıqları yerinə yetirilir.

O qeyd edib ki, ümumilikdə 135,5 kilometr yol bərpa edilib və 80 kilometr yeni yol çəkilib. Ərazilərin mina və partlamamış döyüş sursatlarından tam təmizlənməsi zamanı 1453 ədəd tank əleyhinə, 5420 ədəd piyada əleyhinə mina və 17 min 500 ədəd müxtəlif çaplı döyüş sursatı aşkarlanaraq zərərsizləşdirilib.

C.Cəfərov, həmçinin vurğulayıb ki, Azərbaycan Ordusunun mühəndis qoşunlarının hissə və bölmələri ilə yanaşı, azad olunan ərazilərin mina və partlamamış hərbi sursatlardan tam təmizlənməsi tapşırıqlarına qardaş Türkiyə dövlətindən gələn mina təmizləmə qrupları da cəlb edilib.

Hazırda mina təmizləmə qrupları tərəfindən ərazilərin təmizlənmə tapşırıqları yerinə yetirilir. Təlimata əsasən axtarış zamanı aşkarlanan döyüş sursatlarının zərərsizləşdirilməsi aparılır, zərərsizləşdirilməsi mümkün olmayan sursatlar yerində partlayış üsulu ilə məhv edilir. Müzəffər Ali Baş Komandanın göstərişinə əsasən bu tapşırıqların yerinə yetirilməsinin sürətləndirilməsi və effektivliyinin artırılması məqsədilə müasir tipli minaaxtaran cihazlar alınaraq bölmələrin istifadəsinə verilib. Bundan başqa, müasir mina təmizləmə maşınları da alınıb, onların da yaxın günlərdə Azərbaycana gətirilməsi gözlənilir.

# İdman

## "Karabakh is Azerbaijan" seriyası çərçivəsində "Zangilan Cup" turniri keçiriləcək




Yanvarın 31-də Lichess.org platforması üzərindən "Karabakh is Azerbaijan" şahmat seriyasının üçüncü turniri keçiriləcək.

Chess.az saytının təşkilatçılığı ilə onlayn formatda keçiriləcək "Zangilan Cup"a Azərbaycan şahmatçıları ilə yanaşı, xarici ölkələrdən iştirakçıların da qatılması gözlənilir.

Fevralın 7-də "Qubadli Cup", fevralın 14-də "Shusha Cup", fevralın 21-də "Agdam Cup", fevralın 28-də "Kalbajar Cup", martın 7-də "Lachin Cup" turnirlərinin təşkili planlaşdırılıb. Böyük final - "Karabakh is Azerbaijan Grand Final" martın 14-də olacaq.

## UEFA Gənclər Liqası: "Qəbələ" Şimali Makedoniyanın "Şkendiya" klubu ilə qarşılaşacaq




UEFA Gənclər Liqasında 2020-2021-ci il mövsümünün ilk püşkatması keçirilib.

Tədbirdə otuzikidə bir final cütləri müəyyənləşib. Çempionluq yolunda mübarizə aparan "Qəbələ"nin rəqibi də bəlli olub. On doqquz yaşadək futbolçulardan ibarət komandamız bu mərhələdə Şimali Makedoniyanın "Şkendiya" klubu ilə qarşılaşacaq. Bir oyundan ibarət mərhələnin görüşləri martın 2-3-də baş tutacaq. "Qırmızı-qaralar" onaltıda bir finala vəsiqə uğrunda matçı səfərdə keçirəcək.

## Gənclər arasında boks üzrə dünya çempionatının tarixi müəyyənləşib



Polşanın Keltse şəhərində təşkil olunacaq gənclər arasında boks üzrə dünya çempionatının vaxtı açıqlanıb.

Oğlan və qız boksçuların qatılacağı mundial aprelin 10-24-də baş tutacaq. Polşa yarışı qrafikə uyğun şəkildə yüksək səviyyədə keçirəcəyini təsdiqləyib. Təşkilatçılar, həmçinin bütün təhlükəsizlik tədbirləri ilə bağlı öhdəlik götürüblər.

## "Böyük dəbilqə" turnirində iştirak edəcək cüdo millimizin heyətində dəyişiklik edilib



Fevralın 18-20-də Təl-Əvivdə keçiriləcək cüdo üzrə "Böyük dəbilqə" turnirində iştirak edəcək Azərbaycan komandasının heyətində dəyişiklik edilib.

Əvvəlcə yarışda iştirakı nəzərdə tutulan Rüstəm Orucov (73 kq) və İrina Kindzerska (78 kiloqramdan yuxarı) heyətdən çıxarılıb. Bununla belə, yarışa qatılacaq komandamızın heyətində kişilər arasında Kəramət Hüseynov, Davud Məmmədsoy (60 kq), Orxan Səfərov, Nicat Şıxəlizadə (66 kq), Telman Vəliyev (73 kq), Zelim Tckayev, Hidayət Heydərov (81 kq), Məmmədəli Mehdiyev (90 kq), Elmar Qasımov, Zelim Kotsoyev (100 kq) Uşangi Kokauri, Camal Feyziyev (100 kiloqramdan yuxarı) mübarizə aparacaqlar. Qadınların yarışında isə Aişə Qurbanlı, Leyla Əliyeva (48 kq), Gültac Məmmədəliyeva (52 kq), İrina Kindzerska (78 kiloqramdan yuxarı) güclərini sınayacaqlar.

Yarışda indiyədək 51 ölkədən 242 cüdoçu iştirakını təsdiqləyib.

**AZƏRTAC-ın materialları əsasında**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Paşayev Elvin Elşad oğluna verilmiş şəxsi vəsiqəsinin blankı itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Mahmud MÖHBALIYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 29
Nüsxə 4050